AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

24 iyun 2021-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 23 (3536)



# AZƏRBAYCAN REGİONUN İQTİSADİ, SİYASİ VƏ HƏRBİ GÜCÜDÜR

## *Beynəlxalq təşkilatların ölkəmizə siyasi dəstək verməsi qürurvericidir*



Bu gün beynəlxalq birliyin ən fəal üzvlərindən birinə çevrilən Azərbaycan böyük dövlətlərlə, nüfuzlu beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlığı daha da möhkəmləndirir.

Dünyanın nüfuzlu dövlətlərinin yüksək rütbəli rəsmilərinin və beynəlxalq aləmdə tanınmış, məşhur şəxslərin dilindən dövlətimizin qüdrəti, onun bölgədəki rolu haqda səsləndirdikləri fikirlər Prezident İlham Əliyevin yaratdığı yeni reallığın qəbul edildiyini göstərir. İkitərəfli və çoxtərəfli münasibətlərdə istiqaməti düzgün müəyyənləşdirən dövlət başçısının siyasəti ölkəmizi dünya birliyi müstəvisində söz və nüfuz sahibinə çevrib. İkinci Qarabağ müharibəsindəki hərbi-siyasi qələbə Azərbaycanın mövqeyi ni bir qədər də gücləndirdi.

İndi bölgədə şərtləri qalib Azərbaycanın dövlət başçısı İlham Əliyev diktə edir. Ermənistanın mina xəritələrini verməyə məcbur edilməsi bu siyasi gücün məntiqi nəticəsi kimi özünü göstərdi. Ağdam rayonu üzrə tank və piyada əleyhinə 97 min minanın xəritəsinin verilməsi 30 il işğal altında saxlanılan Qarabağın azad olunması ilə nəticələnmiş Zəfərdən sonra dövlətimizin başçısının növbəti parlaq qələbəsi kimi səciyyələndirilir.

Bugünlərdə bir sıra ölkələrin Azərbaycanda yeni təyin olunmuş qeyri-rezident səfirlərinin etimadnamələrini qəbul edərkən Prezident İlham Əliyev "Əgər Ermənistan sülh istəyirsə, bizim də sülh sazişinə ehtiyacımız var. Əgər Ermənistan müharibə istəyirsə, ötən ilin payızındakı eyni nəticəni əldə edəcək. Əgər Ermənistan sülh istəyirsə, onlar delimitasiya ilə bağlı bizimlə danışıqlara başlamalıdır. Əgər onlar bunu etməsələr, peşman olacaqlar" -deməklə, Azərbaycanın sülh naminə güc tətbiq etməkdən çəkinməyəcəyini qəti şəkildə nümayiş etdirdi.

Sülhə məcburetmə əməliyyatları keçirmək üçün Azərbaycanın İkinci Qarabağ müharibəsinin sınağından çıxmış etibarlı dostlarının, strateji müttəfiqlərinin olduğunu düşmən də gördü. Belə dövlətlərdən biri də Pakistan İslam Respublikasıdır. Prezident İlham Əliyev bu ölkənin Quru Qoşunları komandanı ordu generalı Qamar Caved Bacvanı qəbul etməklə, regionda hərbi və siyasi gücü əlində saxladığını nümayiş etdirdi.

Avropa Şurasının baş katibi Mariya Peyçinoviç-Buriç Assambleyanın üzvlərinin suallarını cavablandırarkən Azərbaycanın minalanmış əraziləri probleminin "erməni əsirləri"ndən daha vacib olduğu fikrini irəli sürməsi, Prezident İlham Əliyevin siyasi iradəsinin mötəbər təşkilatlar tərəfindən dəstəkləndiyini göstərir. Baş katib bildirib ki, qalan minalar 50 il və ya daha uzun müddətdə düzgün araşdırılmasa və düzgün müəyyənləşdirilməsə, oradakıların həyatına mənfi təsir göstərə bilər. Bu ərazilərdəki minaların xəritələrinin alınmasının və minaların məhv edilməsinin əhəmiyyəti unudulmamalıdır.

Hadisələrin gedişi göstərir ki, Ermənistanda yersiz inad göstərməyin və Azərbaycanın sülh üçün təklif etdiyi şərtləri qəbul etməkdən başqa çarələrinin olmadığını artıq anlayıblar.

Sülhün ilk rəsmi təməli isə Türkiyə Prezidenti Rəcəb Tayyip Ərdoğanla Azərbaycan Prezidenti İlham Əliyev arasında Şuşada imzalanmış bəyanamə ilə atılıb.

Tarixi Şuşa Bəyannaməsi işğalçı Ermənistanı əməkdaşlığa dəvət edir, qisasçılıqdan uzaq durmağa, öz dövlətinin və xalqının gələcək inkişafı üçün Zəngəzur dəhlizindən bəhrələnməyə səsləyir. Bəyannamə prinsipcə bölgədə bütün dövlətlərə təhlükəsiz və səmərəli əməkdaşlıq şəraiti də yaradır. Deməli, Şuşa Bəyannaməsi mahiyyətcə elə sülh bəyannaməsidir!

# Daxili İşlər Nazirliyində qəbul keçirilib

## *Nazir V.Eyvazov: "İki ölkənin Daxili İşlər nazirlikləri arasında səmərəli əməkdaşlıq mövcuddur"*



Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov iyunun 22-də ölkəmizdə rəsmi səfərdə olan Pakistan İslam Respublikasının Silahlı Qüvvələrinin Quru Qoşunları komandanı, ordu generalı Qamar Caved Bacvanın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Qonağı salamlayan nazir strateji müttəfiqlər olan iki dövlət arasında əlaqələrin zəngin tarixə və dərin köklərə malik olduğunu, ulu öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bu münasibətlərin möhkəm təməllər üzərində qurulmasına hər zaman xüsusi önəm verdiklərini məmnunluqla qeyd edib.

General-polkovnik Vilayət Eyvazov qonağa ölkəmizdəki mövcud kriminogen durum, həyata keçirilən islahatlar, cinayətkarlıqla mübarizə və ictimai asayişin qorunması sahəsində əldə edilən nəticələr barədə qısa məlumat verib.

İki ölkənin Daxili İşlər nazirlikləri arasında səmərəli əməkdaşlığa söykənən ikitərəfli münasibətlərin mövcudluğunu diqqətə çatdıran nazir V.Eyvazov imzalanmış beynəlxalq hüquqi sənədlər əsasında transmilli mütəşəkkil cinayətkarlıqla, narkotiklərin qanunsuz dövriyyəsi ilə və xüsusilə insan alverinə qarşı mübarizədə birgə səylərin göstərildiyini, əməliyyat məlumatlarının mübadilə olunduğunu da bildirib. O, eyni zamanda hüquq mühafizə orqanları arasında əməkdaşlıq əlaqələrinin Beynəlxalq Kriminal Polis Təşkilatı (İNTERPOL) çərçivəsində də uğurla həyata keçirildiyini və DİN-in Daxili Qoşunları ilə Pakistanın Qlobal Sənaye və Müdafiə Həlli Təşkilatı arasında hərbi maddi-texniki sahədə yaradılmış əlaqələrin uğurla davam etdirildiyini vurğulayıb.

Səmimi qəbula, ətraflı məlumata görə təşəkkür edən ordu generalı cənab Qamar Caved Bacva dövlətlərimiz və xalqlarımız arasında dostluq, qardaşlıq münasibətlərinin həqiqətən dərin köklərə malik olduğunu önə çəkərək, xüsusilə son illər ərzində bütün sahələrdə əlaqələrin daha sürətli inkişafından, ölkəmizdə yaradılmış sabitlik və əmin-amanlıqdan məmnunluğunu bildirib.

Səmimilik və dostluq şəraitində keçən görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər də müzakirə olunub.

*İyunun 18-də Bakıda beşulduzlu "Intercontinental" otelinin açılışı olub.*

*Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.*

# Rəsmi xronika

*Azərbaycan Prezidenti İlham Əliyev iyunun 17-də "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 23 aprel tarixli 295-VIQD nömrəli Qanununun tətbiqi haqqında fərman imzalayıb.*

*Dövlətimizin başçısı iyunun 21-də "Xüsusi, hərbi və diplomatik rütbələrin ixtisas dərəcələri ilə qarşılıqlı uyğunlaşdırılması Qaydası"nın təsdiq edilməsi haqqında fərman imzalayıb.*

*Ölkəmizin rəhbəri iyunun 21-də Goranboy rayonunun Əlirzalı–Xan Qərvənd–Səfikürd–Tap Qaraqoyunlu avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.*

*Azərbaycan Prezidenti İlham Əliyev iyunun 21-də Qazaxıstan Respublikasının Baş nazirinin müavini, xarici işlər naziri Muxtar Tleuberdini qəbul edib.*

*Ölkəmizin rəhbəri iyunun 22-də Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin yaradılması haqqında fərman imzalayıb.*

*Dövlətimizin başçısı iyunun 23-də BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Anxel Moratinosu qəbul edib.*

*Azərbaycan Prezidenti İlham Əliyev iyunun 23-də Birləşmiş Ərəb Əmirliklərinin iqtisadiyyat naziri Abdulla Bin Touq Al Marrini qəbul edib.*

# Daxili İşlər Nazirliyi yanında İctimai Şuranın ilk toplantısı keçirilib

**İclası giriş sözü ilə açan Daxili İşlər nazirinin müavini, polis general-leytenantı İsmət Əliyev Nazirliyin İctimai Şuranın normal fəaliyyəti üçün “İctimai İştirakçılıq haqqında” qanunun tələblərinə uyğun müvafiq şərait yaradacağını bildirib.**

“Təmiz Dünya” Qadınlara Yardım ictimai birliyinin rəhbəri Mehriban Zeynalovanın sədrlik etdiyi iclasda ilk öncə İctimai Şura iclasının gündəliyi təsdiqlənib. “İctimai İştirakçılıq haqqında” qanunun tələblərinə uyğun olaraq İctimai Şuranın reqlamenti müəyyən olunub və təşkilati məsələlərə baxılıb.

İctimai Şuranın sədrliyinə “Konstitusiya” Araşdırmalar fondunun prezidenti Əliməmməd Nuriyevin namizədliyi irəli sürülüb. Səsvermə nəticəsində Ə.Nuriyev yekdilliklə Daxili İşlər Nazirliyi yanında İctimai Şuranın sədri seçilib. Daha sonra İctimai Şura sədrinin müavinliyinə “Demokratik Cəmiyyət və Qadın Hüquqlarının Müdafiəsi” ictimai birliyinin sədri Mehriban Abdullayeva, “XXI Əsrin Qadınları” ictimai birliyinin sədri Mahirə Əmirhüseynova və “Regional İnsan Hüquqları və Media Mərkəzi” ictimai birliyinin sədri Xalid Kazımovun namizədliyi irəli sürülüb.

Səsvermə nəticəsində Mahirə Əmirhüseynova və Xalid Kazımov Daxili İşlər Nazirliyi yanında İctimai Şura sədrinin müavinləri seçilib.

İctimai Şura katibliyinə isə “Azərbaycan Demokratik Jurnalistlər Liqası”nın sədr müavini Sevda Məmmədovanın namizədliyi irəli sürülüb. Sevda Məmmədova səsvermə nəticəsində İctimai Şuranın katibi seçilib.

İclasda cari məsələlərə də baxılıb. Növbəti iclasadək Daxili İşlər Nazirliyi yanında İctimai Şuranın Etik Davranış Kodeksinin hazırlanmasının vacibliyi vurğulanıb.

*“Polis”*

# Şuşa onlara əmanətdir

## *Türkiyəli reportyor cəbhədəki polis dostundan yazdı*




**Azərbaycan Polisi İkinci Qarabağ müharibəsində də öz sözünü dedi. Xüsusən, cəbhəyanı ərazilərdə təhlükəsizliyin təmin edilməsi üçün yaradılmış polis postlarındakı əməkdaşlarımız, obrazlı desək, odun-alovun içində xidmət etməklə, orduya dayaq oldular.**

Bugünlərdə Türkiyə nəşrlərində geniş yer alan və bizim mətbuatın da diqqətini çəkən xəbər, bir zabit həmkarımızın timsalında, Azərbaycan polisinin 44 günlük Vətən savaşındakı xidmətini yenidən gündəmə gətirdi.

Türkiyənin TV100 kanalının telereportyoru, İkinci Qarabağ müharibəsi zamanı Azərbaycandan operativ reportajlar yayan Burak Ersemiz özünün sosial media hesabında yazıb ki, həmin günlərdə cəbhə bölgəsində bir polis əməkdaşı ilə dostlaşıb. O, Prezident Rəcəb Tayyib Ərdoğanı Şuşaya səfərdə müşayiət edərkən həmkarımızla yenidən görüşmək istəyəndə, məlum olub ki, dostlaşdığı polis zabiti indi Şuşa RPŞ-nin polis rəisidir.

Məlumat üçün qeyd edək ki, Burak Ersemiz Ermənistan ordusunun cəbhəyanı yaşayış məntəqələrini, Gəncəni bombalaması haqda xəbərləri, hadisə yerindən operativ kadrları dünyaya ilk çatdıran jurnalistlərdən olub. Onun Talış kəndində və Cəbrayılda apardığı çəkilişlər ordumuzun düşmənə necə zərbə vurduğunu göstərən unikal tarixi kadrlardan hesab olunur.

Telereportyor sosial media hesabında qeyd edib ki, polis zabiti Səmədlə (**hazırda Şuşa RPŞ-nin rəisi, polis polkovniki Səməd Məhərrəmov**) müharibə günlərində Goranboyun Tap-Qaraqoyunlu kəndində tanış olub. “44 günlük savaşda tanıdığı Səmədi. İnanılmaz dərəcədə ürəklidir. Tap-Qaraqoyunluda maddi-texniki dəstək və təhlükəsizlik işlərinə cavabdeh idi. Qardaş kimi olduq. Şuşalıydı. İşğaldan sonra ailəsi ilə birlikdə torpaqlarını tərk etmək məcburiyyətində qalmışdı. Qarabağ azad olunanda birlikdə sevindik. Müharibədən sonra Şuşada xidmət etdiyini eşitmişdim. Bülent Kordemirci ilə Şuşaya çatar-çatmaz ilk qarşılaşdığım polisə onun fotosunu göstərdim. Baxdı və telefonla ona zəng vurdu. Dedi burada mətbuat işçiləri var, əllərində də sənin şəklin. Səməd həmin polisə “dərhal yanıma gətirin” deyibmiş. Mindik polis maşınına, getdik polis mərkəzinə. Qapıda qarşıladı...qucaqlaşdıq. 14 yaşında ayrıldığı Şuşaya qovuşmuşdu. Gözləri doldu. İndi o, Şuşanın polis rəisidir. Bütün Şuşa ona əmanətdir. Səməd qardaşımız da Allaha əmanət”,-türkiyəli telereportyor yazıb.

# Silah-sursat aşkar edilib

İşğaldan azad edilmiş ərazilərdə silah-sursatların, mina və digər partlayıcı vasitələrin aşkar edilməsi məqsədi ilə profilaktiki tədbirlər davam etdirilir.

**Şuşa Rayon Polis Şöbəsinin** əməkdaşlarının, Daxili Qoşunların hərbi qulluqçularının Dövlət Təhlükəsizlik Xidməti ilə birgə keçirdikləri növbəti tədbirlər zamanı 13 növ qumbara, 1 avtomat, 1 qumbaratatan, 1 tank əleyhinə mina, 20 növ raket, 26 avtomat sandığı, 1 top mərmisi, 7124 müxtəlif çaplı patron və digər döyüş sursatları aşkar edilərək götürülüb.



# Sülh və təhlükəsizlik naminə

## *Azərbaycanın regionda cinayətkarlığa qarşı mübarizəsi, sabitliyin bərqərar olmasında tutduğu mövqe BMT tərəfindən təqdir olunur*



**Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov BMT-nin ölkəmizdəki rezident-əlaqələndiricisi Qulam İsakzaini missiyasının sona çatması ilə əlaqədar qəbul edib.**

Qonağı salamlayan nazir BMT-nin bir çox təsisatları ilə Daxili İşlər Nazirliyi arasındakı sıx əməkdaşlıq əlaqələrinin mövcudluğunu, ölkəmizin BMT-nin terrorçuluğa, transmilli mütəşəkkil cinayətkarlığa, narkotiklərin dövriyyəsinə, qanunsuz miqrasiyaya və insan alverinə qarşı mübarizə üzrə müvafiq Konvensiya və Protokolların iştirakçısı olaraq, Təşkilatın bir çox xüsusi qurum və orqanları ilə faydalı əməkdaşlıq münasibətlərini davam etdirdiyini xatırladıb, qlobal sülh və təhlükəsizliyin qorunması üçün məsul olan bu qurumun daha səmərəli fəaliyyət göstərməsinə respublikamızın da öz töhfəsini verdiyini vurğulayıb.

Nazir qeyd edib ki, təkcə son 5 ildə respublikada və ayrı-ayrı xarici dövlətlərdə BMT-nin təşəbbüsü ilə keçirilən müxtəlif tədbirlərdə Azərbaycan Respublikasının daxili işlər orqanlarının 200-ə yaxın əməkdaşı fəal iştirak edib.

Bu əlaqələrin genişlənməsinə, eləcə də ölkəmizdəki fəaliyyəti dövründə Azərbaycan Respublikası ilə BMT arasında münasibətlərin inkişafına verdiyi töhfələri yüksək qiymətləndirən general-polkovnik V.Eyvazov Q.İsakzaiyə təşəkkürünü bildirib və bundan sonrakı fəaliyyətində uğurlar arzulayıb.

Səmimi qəbula görə minnətdarlığını bildirən cənab Qulam İsakzai fəaliyyət göstərdiyi müddətdə ölkəmizdə böyük quruculuq işlərinin getdiyinin, iqtisadiyyatın durmadan inkişaf etdiyinin şahidi olduğunu, Azərbaycanda təhlükəsizlik məsələlərinin uğurla həyata keçirildiyini, hüquq mühafizə, o cümlədən polis orqanlarının bu istiqamətdə üzərlərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəldiklərini xatırladıb, BMT-nin Azərbaycandakı strukturları ilə Daxili İşlər Nazirliyi arasında əməkdaşlığın bundan sonra daha da genişlənəcəyinə əminliyini ifadə edib.

*Zeyni Hüseynov,*
*polis leytenantı*

# Xalqın hüzuru polisin qürurudur

**DİN rəhbərliyinə ünvanlanan təşəkkür məktublarında sabitliyin, təhlükəsizliyin təminatçısı olan Azərbaycan Polisinin fədakar xidməti, peşəkarlığı öz əksini tapır.**

Erməni terrorçularının Bərdəni raket atəşinə tutduqları zaman ağır yaralanmış şəhər sakini **Telman Orucov** DİN rəhbərliyinə ünvanladığı təşəkkür məktubunda göstərilən diqqət və qayğıya görə minnətdarlığını ifadə edir. O yazır: “ Vətən savaşında çətin günlər yaşadıq. Həm fiziki, həm də mənəvi zərbələrə məruz qalmağımıza baxmayaraq, iradəmizdən dönmədik. Xoşbəxt xalqıq ki, düşmənə qarşı bir olduq, birlikdə mübarizə apardıq. Qazandığımız zəfər isə bizə bütün ağrı-acılarımızı unutdurdu. Vətən savaşı ərəfəsində də Azərbaycan Polisi öz fədakar, peşəkar xidməti ilə fərqləndi. Bu gün də Bərdə RPŞ-nin əməkdaşlarının qayğılarımızla maraqlanması bizə böyük dəstəkdir”.



**Salyan şəhər sakini Vaqif İsmayılov** səhhəti ilə bağlı DİN-in A.Heydərov adına Respublika Hospitalına etdiyi müraciətinə həssaslıqla yanaşıldığını qeyd edərək, göstərilən diqqət və qayğıya görə minnətdarlığını yazır.

**Paytaxt sakini Sübhan Şərifovun** da məktubu təşəkkür doludur. “Anam əlildir. Vəziyyəti pisləşdiyindən təcili xəstəxanaya yerləşdirməliydi. Səhər saatları olduğundan 20 Yanvar metrostansiyasının ərazisində tıxaca düşdük. Zaman itkisi əleyhimizə işləyə bilərdi. Yol polislərinə yaxınlaşdım, əmin idim ki, mənə yalnız polislərimiz köməklik göstərə bilərlər. Təhlükəsiz şəraitdə və tez bir zamanda xəstəxanaya yetişdik. Sağ olsunlar, əgər yol polisləri vaxtında yetişməsəydilər, hər an faciə ilə üz-üzə qala bilərdik”.

**Sosial şəbəkə izləyicimiz Tacəddin Babazadə** ünvanladığı müraciətin obyektiv araşdırılaraq qısa zaman kəsiyində müsbət həllini tapmasına görə minnətdarlığını bildirir.

**Bakı şəhər sakini Raqif Binnətov** məktubunda yol hərəkətinin təşkili ilə bağlı müraciətinə operativ baxılaraq qısa müddətdə müsbət həll edildiyini bildirir. O, avtomobil yollarında təhlükəsizliyin etibarlı təmin olunmasına, polis əməkdaşlarının müstəsna xidmətinə diqqət çəkir, həmçinin onların təhsil müəssisələrinin qarşısında məktəblilərin təhlükəsizliyi üçün həyata keçirdikləri tədbirlərin təqdirəlayiq olduğunu qeyd edir.

*İnformasiya bölməsi*

# Mübariz oğulların cərgəsində

## *Hörmətlə anır, ehtiramla yad edirik*

**Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan qəhrəmanlarımızdan biri də Daxili Qoşunların "Qartal" xüsusi təyinatlı dəstəsinin hərbi qulluqçusu, baş çavuş Nadirov Elçin Nadir oğludur.**



O, 1987-ci il dekabrın 5-də Şəki şəhərində ziyalı ailəsində dünyaya göz açıb. Ailənin ilk övladı olan Elçin orta təhsilini Şəkidəki Fizika-riyaziyyat və humanitar təmayüllü liseydə alıb. 2005-ci ildə məzun olduqdan sonra Texnologiya kollecinə qəbul olub. Uşaqlıqdan idmanın karate növünə maraq göstərib və müəyyən nəticələr əldə edib. Müddətli həqiqi hərbi xidmətini 2006- 2007-ci illərdə Daxili Qoşunların Bakı və Gəncə şəhərlərində yerləşən "N" saylı hərbi hissələrində keçib. Hərbi xidmətini başa vurduqdan sonra doğmalarının yanına qayıdıb və təhsilini davam etdirib. Ancaq qısa fasilədən sonra torpağa olan bağlılığı, hərb sənətinə marağı onu yenidən xidmətə qaytarıb. Elçin Daxili Qoşunlarda müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb. Bilik və bacarığı sayəsində böyük rəislərin etimadını, şəxsi heyətin hörmətini qazanıb. Xidmət etdiyi dövrdə yüksək döyüş hazırlığı və qüsursuz xidmətilə fərqlənən cəsur hərbi qulluqçumuz 3-cü dərəcəli "Qüsursuz xidmətə görə" medalı ilə təltif edilib.

Vətən müharibəsi başlayan ilk gündən döyüşlərə qatılan qəhrəmanımız torpaqlarımızın düşməndən azad edilməsi əməliyyatlarında mərdliklə vuruşub, dəfələrlə döyüş yoldaşlarını ölümdən xilas edib. Oktyabrın 15-də Füzuli istiqamətində gedən gərgin döyüşlərdə Elçin Nadirov yaralı yoldaşını döyüş meydanından çıxarmağa çalışarkən qəhrəmancasına şəhid olub. Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə (ölümündən sonra ) "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

Arzu və Zaur adında iki övladı bizlərə əmanət qalıb.

*Mahir Mənsimov,*
*polis baş leytenantı*

# Qələmi həm də silahı olub

## *Onun araşdırmaları tariximizin qaranlıq səhifələrinə işıq salıb*

Milli-mənəvi dəyərlərin həssaslıqla qorunub-saxlanması, dostluq, həmrəylik, qarşılıqlı dəstək meyilləri, başqa dinə, irqə mənsub olanlara anlayış, duyarlılıq göstərmək, şəfqətini əsirgəməmək xalqımızın milli sərvətlərindəndir.



Elə bu ənənəyə sadiq qalaraq, 80 illik yubileyi ərəfəsində uzun illər DİN-də müxtəlif vəzifələrdə çalışan, istefada olan polis polkovniki Georgi Pavloviç Zapletinlə görüşdük. Səmimi söhbətimiz əsnasında onun həm də nə qədər təvazökar, müdrik olduğunu gördük.

Ömür kitabının səhifələrini vərəqlədikcə, ötənləri xatırladıqca həm qürurlanır, həm də kövrəlirdi...

"1941-ci il Bakıda, İçərişəhərdə doğulmuşam. Bura mənim vətənimdi. Heç vaxt özümü qərib hiss etməmişəm. Doğma, isti münasibət mənə bu torpağı, bu xalqı sevdirib, bu torpağa bağlıyıb. Bu diqqət və qayğı məndə ruh yüksəkliyi yaradıb, yaşamaq şövqü verib. Ondan çox müəllifi olsam da, yazdığım ilk kitabım da İslam dininə aiddir, Mir Mövsüm Ağa haqqındadır. Bakıda yaşayıb, daxili işlər orqanlarında xidmət etdiyim üçün çox xoşbəxtəm. Polisdə müxtəlif məsul vəzifələrdə çalışdığım illərdə Azərbaycan Polisinin tarixini qələmə almaq mənim üçün çox şərəfli olub. Bir vətəndaş və ailə başçısı kimi qarşıma qoyduğum çox görəcək işlərim var. Bu gün silahım qələmimdir",- deyən Georgi Pavloviçin illər saçlarını ağartsa da qəddi-qaməti əyilməyib, zəhmətsevərliyi də öz yerində.

**Redaksiyadan:** Yüzü haqlamağa nə qalıb ki, əziz veteranımız. Sözə söykək ömür yaşamaq hər kəsə nəsib olmur. Bu gün yazdığınız o kitablardan tariximizlə bağlı çox mətləbləri oxuyub-öyrənmişik. Bizdən sonra gələnlər də oxuyacaqlar, öyrənəcəklər və adınızı fəxarət hissi ilə çəkəcəklər. Sizə vaxtın dəyirmanından diri çıxan sözünüz qədər ömür arzulayırıq.

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*

# Hakimlər sırasında həmkarımız da vardı

## *Beynəlxalq yarışda əməkdaşımız ədaləti qorudu*

***Bolqarıstanın Samokov şəhərində keçirilən, yığmamızın güləş tarixində ilk dəfə yeniyetmələrin Avropa çempionatında ölkəmizi güləşçilərimizlə yanaşı, iki hakim də təmsil edib. Onlardan biri Cəlilabad RPŞ-nin əməkdaşı, polis leytenantı, sərbəst güləş üzrə "Əməkdar məşqçi", beynəlxalq dərəcəli hakim, idman ustası Tural Əliyevdir.***




Çoxsaylı beynəlxalq yarışlarda ədaləti qoruyan hakim həmkarımızın zorxana güləşi üzrə böyük nailiyyətləri var. O, 3 qat Avropa çempionu və 3 qat dünya kubokunun sahibidir. 2009-2011-ci illərdə ardıcıl olaraq dünyada ilin ən yaxşı pəhləvan güləşçisi seçilib. Əməkdaşımız həm də ölkə tarixində "Əməkdar məşqçi" adına layiq görülən ən gənc idmançıdır. Onun yetirmələri arasında dünya və Avropa çempionları var.

T.Əliyev əldə etdiyi nailiyyətlərin ölkə rəhbərliyinin idmana olan diqqətinin və qayğısının nəticəsi hesab edir. Həm idman ustası, həm də polis zabiti kimi asayişin qorunmasında, cinayətkarlığa qarşı mübarizədə dövlətimizə və xalqımıza xidmətdən qürur duyduğunu bildirir.

# Alplar Quzanlıda döyüşdülər




**Azərbaycan Pespublikası Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə "Zəfər ruhu Qarabağda" şüarı altında iyunun 19-dan 20-dək Quzanlı Olimpiya İdman Kompleksində Alpaqut Turan Döyüş sənəti üzrə VI Azərbaycan çempionatı keçirilib.**

Ümumilikdə 310 nəfər idmançının iştirak etdiyi yarışda 27 komanda qələbə uğrunda mübarizə aparıb. Yarışda DİN-in Polis Akademiyasının kursantları da qüvvələrini sınayıblar. Kursantlar – Azər Bəşirzadə (1-ci kurs), Ramil Allahverdiyev (2-ci kurs), İsa Məmmədov və Rəvan Bayramzadə (3-cü kurs), Yəhya Çerpanov (5-ci kurs) I, Qamət Ənvərzadə və İslam Əliyev (1-ci kurs), Təhmin Həsənzadə (2-ci kurs), Amil Şirinli (3-cü kurs) II, Novruz Quluzadə (1-ci kurs) isə III yeri tutublar.

Kursantları bu yarışa hazırlayan DİN Polis Akademiyasının Fiziki hazırlıq kafedrasının müəllimi, polis baş leytenantı Natiq Eminov "Polis"ə bildirib ki, yarış Ayca, Batur, Caymaz, Qursaq və Kaçut adlı 5 sistem üzrə (silahsız özünümüdafiə) keçirilib. Kursantların fiziki və texniki hazırlığı hakimlər tərəfindən yüksək qiymətləndirilib və gələcəyin polisləri komanda olaraq 2-ci yerə layiq görülüblər.

Qeyd edək ki, yarışda fərqlənən və yüksək nəticələr əldə edən idmançılar yığma komandanın tərkibində ilin sonunda qardaş Türkiyənin Bursa şəhərində baş tutacaq dünya çempionatında iştirak hüququ qazanacaqlar.

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*

# İctimai nüfuzu onlar formalaşdırır

## *Vətəndaşların etimadını nümunəvi xidmətlərilə doğrultmağa çalışırlar*

**Polis - vətəndaş münasibətinin uğuru çox vaxt Post-Patrul Xidməti əməkdaşlarının fəaliyyətindən asılı olur. Çünki vətəndaşlarla polisin ilk ünsiyyəti məhz onların xidməti əsnasında ortaya çıxır. Hadisə yerinə ilk çatan əməkdaşın peşəkar davranışı, nəticə etibarı ilə, bütövlükdə polisin ictimai nüfuzunu müəyyən edir. Bəlkə elə buna görədir ki, haqlı olaraq bu xidmətin əməkdaşları öz fəaliyyətlərini obrazlı bənzətmə ilə – "Post-Patrul Xidməti polisin simasıdır" kimi ifadə edirlər.**

Xəzər Rayon Polis İdarəsi Post-Patrul Xidməti Bölüyü də, bu mənada, istisna deyil. Bölüyün əməkdaşları pandemiya dövründə işin miqyasının bir qədər də artdığını, lakin öhdəsindən gəlməyə çalışdıqlarını deyirlər. İctimai asayişi qorumaq və cinayətkarlığa qarşı mübarizə aparmaqla yanaşı, yerlərdə karantin qaydalarına da nəzarət etmək onların gündəlik xidmətini təşkil edir. Hazırda bəzi məhdudiyyətlər aradan qaldırılsa da, qapalı məkan və sosial məsafə gözlənilməli olan açıq havada, məsələn, bankomat qarşısında, digər kütləvi toplanma yerlərində qaydalara əməl edilməsinə nəzarət tədbirlərini davam etdirirlər.

**Xəzər RPİ Post-Patrul Xidməti Bölüyünün komandiri, polis baş leytenantı Elşad Alxasovun** sözlərinə görə, dövlət əhəmiyyətli tədbirlərin təhlükəsizliyinin təmin edilməsində də PPXB yaxından iştirak edir. Futbol üzrə Avropa çempionatının Bakıda keçirilən görüşlərində təhlükəsizlik tədbirlərinə Bölüyün 66 əməkdaşı cəlb olunmuş, indiyədək keçirilən hər 3 görüşdə onların xidmət apardıqları sektorlarda heç bir insident baş verməmişdir. Daha öncə isə "Formula–1" Qran-pri yarışlarında xidmətə cəlb edilən əməkdaşlar vəzifələrini verilən göstərişlərə uyğun olaraq uğurla icra ediblər.



Qeyd edək ki, təlimatlarda xidmətin vətəndaşlarla nəzakətli davranış və etik münasibətlər çərçivəsində təşkil edilməsi barədə İdarə rəhbərliyinin göstərişi əməkdaşlar tərəfindən diqqətdə saxlanılır.

Bölük komandiri E.Alxasov deyir ki, hər bir əməkdaş vətəndaşın təhlükəsizliyini özünün ilk vəzifəsi hesab edir. Elə bugünlərdə xidmətdə olan əməkdaşlar Xəzər-Suraxanı yolunda yanan avtomobildən, biri azyaşlı olmaqla, sərnişinləri yanğının cəngindən xilas ediblər. Bu hadisə bir daha onu göstərir ki, polis üçün özünün deyil, özgənin həyatı öndə gəlir və təhlükənin üzərinə atılmaqda tərəddüd hissi belə keçirmir.

Bölüyün taqım komandiri, polis leytenantı Abbas Sadiqov əvvəllər Xəzər RPİ-də polis nəfəri kimi xidmət edib. O da hesab edir ki, Post-Patrul Xidmətinin əməkdaşları polisin avanqard qüvvəsidir. Gecə-gündüz təhlükəsizliyin keşiyini çəkmək məhz bayır xidmətinin öhdəsinə düşür. Bu isə böyük məsuliyyət deməkdir və onlar həm rəhbərliyin, həm də vətəndaşların etimadını nümunəvi xidmətlərilə doğrultmağa çalışırlar.

*Rəşad Mehtiyev,*
*polis baş serjantı*

# Fəaliyyətimiz diqqət mərkəzindədir

## Ölkəmizə gələn əcnəbilər də Azərbaycan Polisindən razılıqlarını ifadə edirlər

Ölkəmizin dünyada nüfuzunun daha da artması, beynəlxalq miqyaslı idman tədbirlərinin Bakıda keçirilməsi Azərbaycanın dünyada idman ölkəsi kimi tanınmasına səbəb olub.

Aparılan siyasət onu deməyə əsas verir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə son 17 ildə bütün sahələrdə olduğu kimi, idmanın inkişafı üçün də güclü maddi-texniki baza və infrastruktur formalaşdırılıb.

"Avro-2020" futbol yarışlarına ev sahibliyi etməyimiz uzun illər səmərəli şəkildə həyata keçirilən idman siyasətinin növbəti uğurlu təzahürüdür. İnanırıq ki, bu böyük idman tədbiri ölkəmizi daha geniş arenalarda tanıtmaqla bərabər, gələn turistlərin sayına da ciddi təsir edəcək. Vətən müharibəsindən sonra dünya əhəmiyyətli yarışın yüksək təhlükəsizlik şəraitində keçirilməsi ölkəmizin gücünün, qüdrətinin bariz nümunəsidir.

Polis və digər hüquq mühafizə orqanlarının əməkdaşları, həmişə olduğu kimi, bu dəfə də vəzifə başındaydılar. Stadiona giriş üçün azarkeşlərin yoxlanılmasından öz yerlərini tutmalarına qədər hər şey onların nəzarətində idi.





Rəqib komanda tərəfdarlarının da təhlükəsizliyi xüsusi diqqət mərkəzində idi və hər hansı bir xoşagəlməz hadisənin, neqativ halın qarşısını almaq üçün öncədən bütün lazımi tədbirlər görülmüşdü.

Aralarında azyaşlıların da olduğu izdihamı oyun bitəndən sonra gedəcəkləri ünvana istiqamətləndirən həmkarlarımızın sağlamlıq imkanları məhdud olanlara xoş münasibət sərgiləməsi, stadionu daha rahat şəkildə tərk etmələri üçün yaratdıqları şərait də diqqətdən kənar qalmadı.

Yeri gəlmişkən, iyulun 3-də Bakı Olimpiya Stadionunda 1/4 final mərhələsinin bir qarşılaşması da keçiriləcək.

Paytaxtımızda olduğu kimi ölkəmizin ən ucqarında belə keçiriləcək hər bir beynəlxalq yarışın, tədbirin yüksək təhlükəsizlik şəraitində təşkili üçün daxili işlər orqanları, əzmkarlıq nümayiş etdirməyə, üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlməyə hər an hazırdır.

*Zeyni Hüseynov,*
*polis leytenantı*

---

# Xəzri sizi gözləyir




**Daxili İşlər Nazirliyinə bilavasitə tabe olan "Xəzri" İstirahət və Sağlamlıq Mərkəzində standart otaq üçün bir günlük xərcin 01 iyun - 15 sentyabr 2021-ci il tarixlərdə mövsüm üzrə qiymətləri (daxili işlər orqanlarının əməkdaşı üçün 14 gün müddətinə olan yollayışda nəzərdə tutulmuş güzəştlərlə)**

**Qeyd:** 1. "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmət keçmə haqqında" Əsasnamənin 99-cu bəndinə əsasən, daxili işlər orqanları əməkdaşlarına hər il yollayışın qiymətinin 75 faizi miqdarında, ailə üzvlərinə isə 50 faizi miqdarında imtiyaz verilir. Yollayışlar 14 gün müddətinə ildə bir dəfə verilir və yalnız standart otaqlara aiddir. Bu imtiyaz iki bərabər hissəyə (hər biri 7 gün müddətində) bölünmək şərtilə verilə bilər.

2. Daxili Qoşunların hərbi qulluqçuları (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş əsaslarla Mərkəzə yollayış almaq hüququna malikdirlər.

3. Bir günlük xərc tək polis əməkdaşı üçün 33,75 manat (iki nəfərlik nömrəni tək tutduqda 52,50 manat), standart 2 nəfərlik otaqda özü və 1 nəfər ailə üzvü üçün 101,25 manat, özü və 6-12 yaşadək bir uşaq (dolu otaqda əlavə yer verilmək şərti ilə) üçün 82,50 manat, iki nəfər ailə üzvü üçün (özü olmadan) 135,00 manat və onlarla birgə 6-12 yaşadək uşağa əlavə yer verildikdə 165,00 manat təşkil edir.

4. 6 yaşadək uşaqların qalması ödənişsizdir.

5. Qiymətlərə pulsuz 3 dəfə yemək, yaşayış xərcləri, Wi-Fi şəbəkəsi, SPA girişi (qapalı hovuz, hamam, sauna), çimərlikdən, açıq hovuzdan, akvaparkdan, trenajorlardan, mini-futbol, voleybol və uşaq meydançalarından istifadə daxildir. Digər bütün xidmətlər ödənişlidir.

**Ünvan: Bakı şəhəri, Zuğulba qəsəbəsi, Rasim İmanov küçəsi, 40. Mərkəzə "Koroğlu" metro stansiyasından 171 nömrəli avtobus gəlir.**
**Telefon: (+99412) 554-47-60;**
**Mobil telefon: (+99450) 291-15-51; (+99455) 291-15-51;**
**Faks: (+99412) 453-63-33;**
**Poçt indeksi: AZ1090**
**Veb-sayt: www.khazri.mia.gov.az**
**E-poçt: info@khazri.mia.gov.az**

**01 iyun - 15 sentyabr 2021-ci il**

**(2 nəfərlik standart otağın güzəştsiz qiyməti : iki nəfər qaldıqda 270 manat, bir nəfər tək qaldıqda 210 manat)**

| | 2 nəfərlik nömrədə iki istirahətçi qaldıqda 1 nəfər üçün | 2 nəfərlik nömrədə bir istirahətçi tək qaldıqda |
|---|---|---|
| Yollayışla gələn polis əməkdaşı (75% güzəştlə) | 33,75 manat | 52,50 manat |
| Onun ailə üzvü (50% güzəştlə) | 67,50 manat | 105,00 manat |
| Polis əməkdaşı ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (50% güzəştlə) | 30,00 manat | |
| Kənar şəxslər (güzəştsiz qiymət) | 135,00 manat | 210,00 manat |
| Valideyni ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 60,00 manat | |

---

# Vaksinasiya prosesi davam edir

## Özümüzü və yaxınlarımızı yoluxmaqdan qoruyaq

**Ölkəmizdə pandemiya ilə mübarizəyə dövlətin bütün strukturları cəlb olunub. Qısa müddətdə xəstəxanaların hazır vəziyyətə gətirilməsi, yeni modul tipli xəstəxanaların inşa edilməsi, müasir laboratoriyaların fəaliyyətə başlaması, ən ümdəsi Cənubi Qafqazda ilk olaraq vaksinasiya işlərinə start verən ölkənin Azərbaycan olması bu sahədə görülmüş işlərin bariz nümunəsidir.**

Nazirlər Kabinetinin 2021-ci il 16 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası"na uyğun olaraq COVID-19 infeksiyasına qarşı mübarizə məqsədilə əhalinin peyvənd olunması prosesi bu gün də uğurla davam etdirilir. Əsas məqsəd ölkəmizdə yayılmış koronavirus pandemiyasının qarşısının alınmasına, virusa yoluxma və ölüm səviyyəsinin aşağı salınmasına nail olmaqdır.

Daxili İşlər Nazirliyinin 1 və 2 nömrəli poliklinikalarında hazırda koronavirus pandemiyasının qarşısının alınması, DİO-da xidmət edən əməkdaşların peyvəndlənməsi, həmçinin ikinci doza vaksinin vurulması prosesi aparılır. Peyvəndlənmənin başlandığı gündən indiyədək 1 nömrəli poliklinikada 8 mindən çox əməkdaşa birinci, 4 min



beş yüzdən çox əməkdaşa isə ikinci doza vaksin vurulub. Polis əməkdaşlarının vaksinasiya prosesində aktiv iştirak etməsi dövlətin virusla mübarizə strategiyasını daha da gücləndirir.

COVID-19-a qarşı vaksinasiya prosesini keçirmək üçün DİN-nin 1 və 2 saylı poliklinikalarında, o cümlədən A.Heydərov adına Respublika Hospitalında bütün zəruri tədbirlər görülüb. Belə ki, vaksinasiya prosesinin həyata keçirilməsi məqsədilə qəbul otağı, qeydiyyat otağı, xüsusi peyvənd otağı, nəzarət otağı və həkim briqadaları ayrılıb.

*Ruhiyyə Əliyeva,*
*polis baş leytenantı*

---

# Dəymiş ziyan ödətdirildi

**Sabunçu Rayon Polis İdarəsinin İstintaq şöbəsi əməkdaşları tərəfindən vətəndaşların etibarından sui-istifadə etməklə onlara xeyli miqdarda maddi ziyan vuran şəxs saxlanılıb.**




İstintaq zamanı məlum olub ki, əvvəllər avtosalonda işləyən Mircavad Mahmudov tamah niyyətilə kreditdə olan "Hundai İ 20" markalı avtomobili satacağı barədə vətəndaş Lalə Hüseynovaya yalan vəd verərək 4 min manatını alıb. Üstündən bir müddət keçməsinə baxmayaraq o, avtomobili L.Hüseynovaya təhvil verməyib. Zərərçəkmiş pulunun ona qaytarılmadığı üçün polisə müraciət edib.

Aparılan araşdırmalar zamanı o da müəyyən edilib ki, dələduzluğu özünə peşə seçmiş Mircavad daha iki vətəndaşa-Pərvanə Səlimovaya və Sahib Əhmədəliyevə eyni epizod üzrə avtomobil satacağını deyib, ümumilikdə, onlara 20 min ABŞ dolları məbləğində maddi ziyan vurub. Təqsirləndirilən şəxs İŞ-nin müstəntiqi, polis kapitanı Rüstəm İsmayılova törətdiyi əməllərdən peşmançılıq hissi keçirdiyini etiraf edib.

**Sabunçu RPİ İstintaq şöbəsinin rəisi, polis polkovnik-leytenantı Hikmət Vəliyevin** sözlərinə görə, M.Mahmudov toplanmış materiallar əsasında qanuna təslim edilib, vətəndaşlar L.Hüseynovaya və P.Səlimovaya vurduğu maddi ziyanın ödətdirilməsi tam təmin olunub.

*Teymur Əlizadə,*
*polis mayoru*

---

## İyun ayının 16-dan 22-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən, ötən həftə ərzində törədilmiş 298 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 41 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 256, o cümlədən borclu şəxs qismində axtarışda olan 137 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 14 yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 17 nəfər ölmüş, 8 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 175 fakt müəyyən edilmişdir.

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 9025
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 17:00
Qiyməti 40 qəpik